## Dövlət Statistika Komitəsində “Sülh aylığı” çərçivəsində  tədbir keçirilmişdir



2015-ci il avqust ayının 28-də Dövlət Statistika Komitəsində “Sülh aylığı” çərçivəsində tədbir keçirilmişdir.

Tədbirdə əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərləri barədə məruzələr oxunmuşdur.



“Beynəlxalq Sülh Günü” çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Hüquqi maarifləndirmə, elmi – analitik, informasiya və beynəlxalq əlaqələr sektorunun baş məsləhətçisi Müqalib Mahmudov çıxış edərək əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərləri barədə seminar iştirakçılarına məlumat vermişdir. Seminarda həmçinin Dövlət Statistika Komitəsi aparatının baş məsləhətçi hüquqşünası Səbinə Əhmədova, Məlumatların yayılması şöbəsi müdirinin müavini Sevda Süleymanova, Qiymət statistikası şöbəsinin baş məsləhətçisi Yeganə Səfərova, Əhali və gender statistikası şöbəsinin baş məsləhətçisi Zəbihə Əsgər, Ticarət və turizm statistikası şöbəsinin aparıcı məsləhətçisi Kazım Alpaşayev Azərbaycanın regionda sülhün təminatçısı kimi həyata keçirdiyi irimiqyaslı layihələrdən, ölkəmizin mədəniyyətlərarası dialoq, dini tolerantlıq nümunəsi kimi bəşər tarixinə verdiyi töhfələrdən bəhs edən məruzələrlə çıxış etmişlər.



